İCBARİ TİBBİ SIĞORTA



# Xolesterin və sağlam qidalanmaya həsr olunmuş sağlamlıq həftələri üzrə

# Hesabat

**Hesabat**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 20 noyabr-03 dekabr 2017-ci il tarixində pilot ərazilərdə - Mingəçevir şəhərində və Yevlax rayonunda xolesterin  və sağlam qidalanmaya həsr olunmuş sağlamlıq həftələri  keçirmişdir. Bu həftələr çərçivəsində müayinələrdən keçən sakinlərin sağlamlıq vəziyyətini qiymətləndirmək və profilaktik tədbirlərinin səmərəliliyi haqqında tam məlumat əldə etmək məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən registr hazırlanmışdır. Registrdə müayinələrin ilkin nəticələri, müraciətçinin şikayəti və sağlamlıq vəziyyəti, tibbi müayinələrdən keçmə tezliyi, müayinə edən həkim tərəfindən laborator və instrumental müayinələrə göndərişlər haqqında məlumatlar, həkimlər tərəfindən verilmiş məsləhət və tövsiyələr qeyd olunmuşdur.

"Pilot ərazilərdə əhalinin sağlamlığının qorunması və erkən müayinələrə cəlb edilməsi" layihəsinin işçi qrupu registrdə toplanan məlumatları təhlil etmiş və onun əsasında yekun hesabat hazırlamışdır.

Sağlamlıq həftələri ərzində vətəndaşların layihəyə olan marağı və aktiv iştirakı müşahidə edilmişdir. Belə ki, 20 noyabr-03 dekabr tarixlərində 2674 nəfər tibbi müayinələrdən keçmiş və ailə həkimləri tərəfindən onlara müvafiq məsləhətlər verilmişdir.

Sağlamlıq həftələri çərçivəsində tibbi müayinələr pilot ərazilərdə fəaliyyət göstərən 7 Ailə Sağlamlıq Mərkəzlərində (ASM) aparılmışdır. Bunlar Yevlax şəhər ASM, Xaldan ASM, Aran ASM, Malbinəsi ASM, Qaramanlı ASM, Mingəçevir şəhər ASM, Mingəçevir şəhər ASM 2-dir. Ailə Sağlamlıq Mərkəzlərinə müraciətlərin sayı da müxtəlif olmuşdur. Belə ki, Yevlax şəhər ASM-ə 1930 nəfər, Malbinəsi ASM-ə  28 nəfər, Aran ASM-ə  262 nəfər, Xaldan ASM-ə  294 nəfər, Qaramanlı ASM-ə  102 nəfər, Mingəçevir şəhər ASM-ə 11, Mingəçevir şəhər ASM 2 -yə isə 47 nəfər şəxs müraciət etmişdir (Cədvəl 1).

***Cədvəl 1:*** *Ailə Sağlamlıq Mərkəzlərinə edilən müraciətlərin sayı*



Müraciət edən vətəndaşların 170 nəfəri 0-15 yaş, 236 nəfəri 16-25 yaş, 335 nəfəri 26-35 yaş, 406 nəfəri 36-45 yaş, 469 nəfəri 46-55 yaş, 924 nəfəri 56-70 yaş arasında, 134 nəfəri isə 70 yaşdan yuxarı olublar (Cədvəl 2).

***Cədvəl 2:*** *Ailə Sağlamlıq Mərkəzlərinə müraciət edən vətəndaşların yaş qrupları üzrə göstəriciləri*




2449 nəfər ailə həkimlərinin, 225 nəfər isə ixtisas həkimlərinin qəbulunda olublar (Cədvəl 3).

***Cədvəl 3:*** *Ailə və ixtisas həkimlərinin qəbulunda olan vətəndaşların sayı*




Müraciət edənlərin tibbi müayinələrdən keçmə tezliyi də müxtəlifdir (Cədvəl 4): 1384 nəfər son 1 ay, 594 nəfər son 3 ay, 193 nəfər son 6 ay, 205 nəfəri son 1 il, 161 nəfər isə son 3 il ərzində tibbi müayinədən keçmişdir. 3-5 il ərzində müayinələrdən keçənlərin sayı 36 nəfər təşkil edib. 101 nəfər isə sonuncu dəfə tibbi müayinədə 5 və daha çox il öncə olub. Əldə olunan statistik göstəricilər deməyə əsas verir ki, icbari tibbi sığortanın tətbiqinə başlanması ilə vətəndaşların müayinələrə cəlb olunma tezliyində artım müşahidə olunmuşdur. Belə ki, ümumi müraciət etmiş 2674 nəfərdən 2171 nəfəri son 6 ay ərzində müayinələrdən keçib.

*__Cədvəl 4:__ Müraciət edənlərin tibbi müayinələrdən keçmə tezliyi*




Müraciət etmiş 2674 nəfərdən 383 nəfərində qanda xolesterinin miqdarının yüksək olduğu (hiperxolesterinemiya) müəyyən edilmişdir və müvafiq müalicəyə başlanması təmin edilmişdir. 35 müraciətçidə xolesistit (öd kisəsinin iltihabı), hepatosteatoz (qaraciyər piylənməsi), meteorizm (köp) əlamətləri müşahidə edilmiş və müvafiq tövsiyələr verilmişdir.

Sağlamlıq həftələri müddətində müraciət etmiş şəxslərdən 132 nəfəri instrumental, 238 nəfəri şikayətinə uyğun müxtəlif laborator müayinələrdən keçmişdir.

Müraciət etmiş bütün vətəndaşlara xəstəliklərin profilaktikası və sağlam həyat tərzinə dair tövsiyələr verilmişdir. Həmçinin, pilot ərazilərin sakinlərinə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən əhalinin maarifləndirilməsi məqsədilə hazırlanmış “Xolesterin haqqında nəyi bilməliyik?” və “Sağlam qidalanaraq sağlam yaşayın!” bukletləri paylanmışdır.